# Olimpiya dünyası

www.olimpiyadunyasi.com
www.olimpnews.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 5 (1507), 8 - 14 fevral 2022-ci il

Qəzet 2001-ci ildən çıxır.




## Pekin-2022 XXIV Qış Olimpiya Oyunlarının açılış mərasimi keçirilib

Fevralın 4-də Çinin paytaxtındakı məşhur "Quş yuvası" stadionunda Pekin-2022 XXIV Qış Olimpiya Oyunlarının açılış mərasimi keçirilib. Açılış mərasimində Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə yanaşı, bir neçə ölkənin dövlət və hökumət başçıları, rəsmi şəxslər, BMT-nin baş katibi Antonio Quterreş, BMT Baş Assambleyasının sədri Abdulla Şahid, Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax iştirak ediblər.

Azərbaycanı mərasimdə Baş nazirin müavini Əli Əhmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Mərasim Çin Xalq Respublikası bayrağının arenaya gətirilməsi ilə başlayıb və bu ölkənin Dövlət Himni səsləndirilib.

Təxminən 1 saat 40 dəqiqə davam edən açılış mərasiminin əsas məqamlarından biri atletlərin paradı olub. Olimpiya ənənəsinə əsasən, ilk olaraq Yunanıstan komandasının keçidi olub. Azərbaycan paraddan keçən 42-ci ölkə olub. Dövlət bayrağımızı fiqurlu konkisürən Vladimir Litvintsev daşıyıb. Olimpiya oyunlarında ən böyük komandalar Çin, ABŞ, Kanada, Rusiya Milli Olimpiya Komitəsidir. Sonda ev sahibi Çin komandasının idmançılarının keçidi olub. Elə 24-cü Qış Olimpiya Oyunlarının ən böyük heyəti də (387 idmançı) məhz Çindir.

Pekin-2022 Qış Olimpiya və Paralimpiya Oyunlarının Təşkilat Komitəsinin prezidenti Çay Çinin və Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Baxın çıxışlarından sonra Çin Xalq Respublikasının Sədri Si Cinpin XXIV Qış Olimpiya Oyunlarını açıq elan edib.

Təntənəli açılış zamanı müxtəlif rəqs elementləri və kompozisiyalar nümayiş olunub. Vizual şouda xüsusi qrafika ilə hazırlanan buz parçasının üzərində əvvəlki olimpiadaların tarixləri əks etdirilib. İşıq effektləri vasitəsilə rəmzi "qar dənəciyi" fiqurları üzərində iştirakçı ölkələrin adları stadionun üzərində görünüb. Çin kalliqrafiya sənəti üzrə müasir texnologiyalar əsasında Qış Olimpiya Oyunlarının keçirildiyi 24 şəhərin adı canlandırılıb. Daha sonra işıq effektləri vasitəsilə rəmzi "qar dənəciyi" fiqurları üzərində iştirakçı ölkələrin adları stadionun üzərində əks olunub. Təşkilatçılar komandaların üzvlərini onların öz dillərində salamlamağı da unutmayıblar.

Çinin Olimpiya çempionlarının müşayiəti ilə Olimpiya bayrağı arenaya gətirilib və məşəl alovlandırılıb.



## MOK-un baş katibi Pekin-2022-nin Atletlər Kəndində olub

Fevralın 5-də Azərbaycan Milli Olimpiya Komitəsinin baş katibi Azər Əliyev Pekin-2022-nin Atletlər Kəndini ziyarət edib. MOK-un baş katibi burada idmançılarımız üçün yaradılan şəraitlə tanış olub. Azər Əliyev Pekin-2022-də ölkəmizi təmsil edən Olimpiya komandasına uğurlar arzulayıb.

MOK-un baş katibi eyni zamanda Pekin-2022 Qış Olimpiya Oyunlarının açılış mərasimini və Oyunlar çərçivəsində keçirilən bir sıra idman yarışlarını da arenadan izləyib.



### Təmsilçimiz bu gün Pekin-2022-də mübarizəyə başlayır

Bu gün Pekin-2022 Qış Olimpiya Oyunlarında kişi fiqurlu konkisürənlərin qısa proqramına start verilib. Qısa proqramda 30 idmançı 5 qrupda yarışır. Azərbaycanın bayraqdarı Vladimir Litvintsev də buz üzərinə çıxacaq. V.Litvintsev püşkün nəticəsinə əsasən, sonuncu - 6-cı çıxış edəcək. Bu qrupda Kanada, İsveç, İsveçrə, Estoniya və Çin təmsilçisi də yarışacaqlar. Qeyd edək ki, kişi fiqurlu konkisürənlərin sərbəst proqramı fevralın 10-da keçiriləcək.





### Pekin-2022 XXIV Qış Olimpiya Oyunlarında medal qazanan ölkələr

| | Qızıl | Gümüş | Bürünc | Cəmi |
|---|---|---|---|---|
| 1. İsveç | 3 | 0 | 0 | 3 |
| 2. ROK | 2 | 3 | 2 | 7 |
| 3. Niderland | 2 | 2 | 1 | 5 |
| 4. Çin | 2 | 2 | 0 | 4 |
| 5. Almaniya | 2 | 1 | 0 | 3 |
| 6. Norveç | 2 | 0 | 2 | 4 |
| 7. Sloveniya | 2 | 0 | 1 | 3 |
| 8. İtaliya | 1 | 3 | 1 | 5 |
| 9. Kanada | 1 | 1 | 4 | 6 |
| 10. Yaponiya | 1 | 1 | 2 | 4 |
| 11-12. Avstraliya | 1 | 0 | 1 | 2 |
| 11-12. İsveçrə | 1 | 0 | 1 | 2 |
| 13. Y.Zelandiya | 1 | 0 | 0 | 1 |
| 14-15. Fransa | 0 | 3 | 0 | 3 |
| 14-15. ABŞ | 0 | 3 | 0 | 3 |
| 16. Avstriya | 0 | 2 | 2 | 4 |
| 17. Macarıstan | 0 | 0 | 2 | 2 |
| 18-19. Finlandiya | 0 | 0 | 1 | 1 |
| 18-19. Polşa | 0 | 0 | 1 | 1 |




## Anons


**Skandinaviya təmsilçiləri olimpiadanın favoriti hesab olunurlar**

Səh. 4

*İradi və mənəvi keyfiyyətlərin idmançılara aşılanması əsas şərtdir*

Səh. 5

# Atletika üzrə 38-ci Azərbaycan çempionatı keçirilib

Respublika Olimpiya Mərkəzində atletika üzrə 38-ci qış çempionatı keçirilib.

Böyüklər arasında keçirilən çempionatda atletlər 60, 200, 400, 800, 1500 və 3000 metr məsafələrə qaçış, 4x200 metr məsafədə estafet qaçışı, uzunluğa, hündürlüyə və üçtəkanla tullanma, eləcə də nüvəitələmə yarışlarında qüvvələrini sınayıblar.

Çempionatın açılış mərasimində çıxış edən Milli Olimpiya Komitəsinin vitse-prezidenti, Azərbaycan Atletika Federasiyasının prezidenti Çingiz Hüseynzadə Prezident İlham Əliyevin ölkəmizdə idmanın inkişafına göstərdiyi yüksək diqqət və qayğı nəticəsində ölkəmizin dünyada idman dövləti kimi tanındığını deyib. O, Azərbaycanda idmanın digər növləri kimi, atletikanın da sürətlə inkişaf etdiyini bildirib, bu baxımdan belə turnirlərin əhəmiyyətini vurğulayıb. Ç.Hüseynzadə cari ildə Polşada keçiriləcək üçüncü Avropa Oyunlarında Azərbaycan atletlərinin də iştirak edərək medal qazanacaqlarına ümidvar olduğunu bildirib.

Azərbaycan çempionatında atletlərin göstərdikləri nəticələrin gələcəkdə onların beynəlxalq yarışlarda iştirakına imkan yaradacağını deyən federasiya prezidenti idmançılara uğurlar arzulayıb.

Gənclər və İdman Nazirliyinin sektor müdiri Nicat Həsənov Azərbaycan dövlətinin ölkəmizdə idmanın inkişafına göstərdiyi diqqət və qayğıdan danışıb, çoxsaylı yerli və beynəlxalq turnirlərin təşkil olunduğunu bildirib. O, ölkəmizdə atletikanın kütləviliyinin artırılması baxımından çempionatın əhəmiyyətini vurğulayıb.



Ümumilikdə 140 idmançının mübarizə apardığı çempionat iki gün davam edib. Yarışlarda Bakı şəhəri ilə yanaşı, Gəncə, Bərdə və Sumqayıtdan olan atletlər də iştirak ediblər. Çempionatda 11 komanda mübarizə aparıb.

Yarışın qalibləri diplom və medallarla təltif olunublar.

# Fərid Qayıbov: İdman federasiyaları ilə görüşlərimiz davam edir, əsas istiqamətlər müəyyənləşdirilir




Yeni il dinamik başladı. İlk günlərdən gənclərlə iş, idman yarışlarının təşkili, federasiyalarla əməkdaşlıq, regionlarda yaşayan gənclərin inkişafı istiqamətlərində işlər aparılır. Həyat göstərir ki, yeni şərait yeni qaydalar yaradır, lakin nizamlı olmaqla nəzərdə tutulan planları davam etdirmək mümkündür.

Bu fikirlər gənclər və idman naziri Fərid Qayıbovun qeydlərində əksini tapıb.

F.Qayıbov bildirib ki, fevralda intellektual inkişaf sahəsində ixtisaslaşan gənclər təşkilatlarının rəhbərləri ilə Sumqayıt Gənclər Evində görüşdük: “Gənclərin maraq göstərdikləri Şən və Hazırcavablar Klubları, kompüter oyunları, robot və dron mühəndisliyi, intellektual oyunlar klublarının fəaliyyəti haqqında ətraflı və mənzərəni aydın göstərən hesabatları dinlədim. Görüşün davamı kimi, Azərbaycan Kiberidman Federasiyasının əsas bazasında yarışların və məşqlərin aparılması üçün yaradılmış şəraitlə tanış oldum, mütəxəssislərlə söhbət zamanı informasiya texnologiyaları sahəsində yeni ideya və layihələrin də reallaşdırılmasını müzakirə etdik, xüsusən, bu işin regionlarda təşkilinə diqqəti artırmalıyıq”.

Regionlardakı vəziyyətlə tanışlığın davam etdiyini bildirən nazir vurğulayıb: “Mingəçevir, Neftçala, Ağdaş və Göyçayda səfərdə oldum. Tikilməkdə olan, eləcə də mövcud idman və gənclər infrastrukturunun fəaliyyəti ilə maraqlandım. Mingəçevir və Göyçay Gənclər evlərində gənclər üçün yaradılan şərait və göstərilən xidmətlər barədə məlumat aldım. Göyçay və Ağdaş Olimpiya İdman komplekslərində idmançılarla, məşqçi-müəllimlərlə müzakirələrdə gənclərə və idmançılara xidmət səviyyəsinin genişləndirilməsinin önəmliyi qeyd edildi”.

Fevralda ölkəmizdə təşkil olunan yarışlardan da qeydlərində bəhs edən F.Qayıbov deyib: “Mingəçevirdə “Kür” Olimpiya İdman-Tədris Mərkəzində “Tariximizi birgə yaşadaq” şüarı ilə keçirilən avarçəkmə və kanoe üzrə “Gənclər kuboku” turnirini izlədim. Bayram ab-havasında keçən yarış gözəl təəssüratlarla yadda qaldı. Naxçıvana səfərim şahmat üzrə ölkə çempionatının açılışı ilə eyni günə təsadüf etdi. Yarışın açılış mərasimindən sonra, ikigünlük səfər müddətində Naxçıvanın fəal gəncləri və idman ictimaiyyəti nümayəndələri ilə görüşdə onların fikirlərini, təkliflərini dinlədim, müxtəlif mövzular üzrə müzakirələr apardıq. Ağbulaq Xizək Mərkəzi, Naxçıvan Şahmat Mərkəzi, Naxçıvan Olimpiya İdman Kompleksi, Muxtar Respublika Stadionu, Üzgüçülük Mərkəzi, Uşaq-Gənclər İdman Məktəbi, Şərur Olimpiya İdman Kompleksi və Uzunoba Təlim-Məşq İdman Kompleksinin fəaliyyətləri ilə tanışlıq zamanı bölgədə müxtəlif idman növlərinin inkişaf imkanları ilə maraqlandıq. Xüsusilə, Ağbulaq Xizək Mərkəzinin potensialından gələcək qış olimpiyaçılarımızın yetişməsi üçün səmərəli istifadə etmək mümkündür. Naxçıvan Gənclər Evi və Gənclər Mərkəzində gənclərin fəaliyyəti barədə də məlumat əldə etdik”.

2 fevral - Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr edilmiş “Gənclər həftəsi”nin rəngarəng tədbirlərlə dolu olduğunu bildirən nazir vurğulayıb: “Gənclər üçün “Əmək yarmarkası”, “Gənc təlimçilərin I Forumu”, “Dron Şou”, “Yaradıcı gənclər səhnəsi” təşkil edildi. Blogerlərlə keçirilən görüşdə onların gənclərlə bağlı fikirlərini dinlədim. Nazirliyin rəsmi feysbuk səhifəsində həftə ərzində təşkil edilən canlı bağlantılar vasitəsilə müxtəlif peşələrin ekspertləri gənclərin suallarını cavablandırdılar. Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev gənclər qarşısında ölkəmizin gələcəyi ilə bağlı vəzifələr qoydu. Dövlətimizin başçısı xüsusi Sərəncamla “Gənclər üçün Prezident Mükafatı”na layiq gördüyü laureatları təltif etdi. Ölkəmizin rəhbəri forumdakı çıxışında bölgələrdə yaşayan gəncləri idmana cəlb etmək üçün daha fəal olmağı tövsiyə etdi. Püşkatma yolu ilə Tovuz 2022-ci ilin “Gənclər paytaxtı” seçildi. “İlin gənci” nominasiyasında qaliblərə mükafatlar təqdim edildi.

Müxtəlif istiqamətlərdə fəaliyyət göstərən idman federasiyaları ilə görüşlərimiz davam edir, vəziyyət təhlil edilir, əsas istiqamətlər müəyyənləşdirilir. Həndbol və qış idman növləri federasiyalarının ümumi yığıncağlarında iştirak etmişəm. Kamandan Oxatma Federasiyasının, Yelkənli İdman Federasiyasının işləri ilə tanış olmuşam, yığma komandaların məşq bazalarına baxış keçirmişəm. Regionlarda idmanın inkişafına diqqəti artırmaq bizim üçün prioritet məsələlərdən biridir. İdman federasiyalarımızın bu çağırışa qoşularaq bölgələrdə bölmələrin və yarışların təşkilinə diqqəti artırması kütləviliyə də təkan verə bilər”.

Nazir deyib: “İnklüziya cəmiyyətimizdə getdikcə daha geniş vüsət alır. Bu idmanda da əksini tapır. Fəaliyyəti ilə tanış olduğum əlilliyi olan şəxslərin Peşə-Əmək Reabilitasiya Mərkəzində bu məqsədlə yaxşı şərait yaradılıb. Mərkəzin perspektiv inkişafı ilə bağlı fikir mübadiləsi apardıq. “Məmmədyarovlar” şahmat məktəbi ilə tanışlıq zamanı isə ölkənin yeni şahmat potensialının inkişafı sahəsində imkanları müzakirə etdik. İlin ilk ayını idmançılarımız beynəlxalq yarışlarda uğurlu çıxışları ilə başa vurdular. Güllə atıcılığında, qadın güləşində, cüdoda, qılıncoynatmada, atletikada, qarüstü poloda, şahmatda, sumoda qazanılan qələbələr gələcəyə daha böyük ümidlərlə baxmağa əsas verir. Nəticə əldə etmək üçün yaxşı başlanğıc var - realistik baxışlar, obyektiv təhlil, səmərəli müzakirələr, ardıcıl planlar. Həmçinin dövlətin dəstəyi, mütəxəssislərin təcrübəsi, gənclərin və idmançıların potensialı. Elə isə, bu işin də öhdəsindən birlikdə gələcəyik”.



# *Cüdoçularımızın Paris sınağı 2 gümüş medalla yadda qaldı*

Fevralın 5-6-da Fransanın paytaxtı Parisdə cüdo üzrə “Böyük dəbilqə” turniri keçirilib. 52 ölkədən 285 (154 kişi, 131 qadın) idmançının mübarizə apardığı yarışda Azərbaycan cüdoçuları da qüvvələrini sınayıblar. Komandamız yarışda 6 cüdoçu ilə təmsil olunub. Kişilər arasında Kəramət Hüseynov (60 kq), Rüstəm Orucov, Hidayət Heydərov ( hər ikisi 73 kq), Məmmədəli Mehdiyev (90 kq), Zelim Kotsoev (100 kq), Uşangi Kokauri (+100 kq) tatami üzərinə çıxıb.

Təmsilçilərimizdən yalnız Məmmədəli Mehdiyev və Uşangi Kokauri mükafatçılar sırasında yer alıb. Hər iki cüdoçumuz turnirin gümüş medallarına sahib çıxıblar.

Mübarizəyə 1/8 finaldan başlayan M.Mehdiyev (90 kq) əvvəlcə Rafael Masedonu (Braziliya), ardınca Mixael Jqankı (Türkiyə), finalın bir addımlığında isə Beka Qviniaşvilini (Gürcüstan) məğlub edib. Təmsilçimiz finalda Sanşiro Murao (Yaponiya) ilə bacarmayıb və gümüş medalla kifayətlənib.

+100 kq çəkidə yarışan legionerimiz Uşangi Kokauri isə 1/8 finalda Marvin Qado (Monako), 1/4 finalda Emre Sanal (Fransa), yarımfinalda Kim Min Çona (Cənubi Koreya) qalib gəlib. U.Kokauri qızıl medal uğrunda qarşılaşmada Tsetsentsengel Odxüüyə (Monqolustan) məğlub olaraq, fəxri kürsünün ikinci pilləsinə qalxıb.

# Avropa Boks Konfederasiyası yeni mövsümün təqvimini açıqladı

Avropa Boks Konfederasiyası 2022-ci ilin yarışlarının təqvimini açıqlayıb. Bu il bir dünya və altı Avropa çempionatı keçiriləcək. Dünya çempionatı yalnız qadınlar arasında baş tutacaqsa, qitə miqyaslı 6 müxtəlif turnir kişilər, qadınlar, U-22, gənclər, yeniyetmələr və məktəblilər arasında təşkil ediləcək. Belə ki, martın 11-24-də Xorvatiyanın Poreç şəhərində gənclər arasında U-22 Avropa çempionatı keçiriləcək. Bir ay sonra gənclərin Avropa çempionatı (10-22 aprel) Bolqarıstanın Sofiya şəhərində baş tutacaq. Qadınlar arasında dünya çempionatına mayın 6-21-də İstanbul ev sahibliyi edəcək. Həmin ay kişilər arasında qitə çempionatı (21-31 may) Ermənistanda olacaq. Qadınlar arasında analoji yarış isə iyulun 21-31-də Ulan-Udedə (Rusiya) keçiriləcək.

Türkiyədə (Ərzurum) daha bir qitə yarışı - məktəbli oğlan və qızlar arasında təşkil ediləcək (10-31 avqust).

Nəhayət, ilin son yarışı olan yeniyetmələr arasında Avropa çempionatı sentyabrın 23-dən oktyabrın 2-dək İtaliyanın Montesilvano şəhərində baş tutacaq.

# Qrossmeysterimiz “Airthigs Masters” turnirində iştirak edəcək

“Champions Chess Tour”un ilk mərhələsi olan “Airthigs Masters” turnirinin iştirakçılarının siyahısı müəyyənləşib. Fevralın 19-da start götürəcək yarışda Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarov da iştirak edəcək. Yarışda dünyanın ən güclü şahmatçıları ilə yanaşı, gənc istedadlar da güclərini sınayacaqlar. Belə ki, 2021-ci ildə rapid üzrə dünya birinciliyində hazırkı dünya çempionu Maqnus Karlsen, rusiyalı tanınmış qrosmeyster Yan Nepomnyaşi, ABŞ təmsilçisi Fabiano Karuananı məğlub edən və nüfuzlu yarışın qalibi olan 17 yaşlı özbəkistanlı Nodirbek Abdusattorov da yer alıb. Eyni zamanda, turnirdə 16 yaşlı hindistanlı Rameşbabu Praqnanandaa və digər gənc şahmatçılar da mübarizə aparacaqlar.

Ötən il keçirilən analoji turnirin ən yaddaqalan hadisələrindən biri Teymur Rəcəbovun finalda ermənistanlı şahmatçı Levon Aronyan üzərində parlaq qələbə qazanmaqla qalib olması olub. Digər maraqlı hadisə isə rusiyalı şahmatçı Daniil Dubovun Maqnus Karlsenin dörddəbir finalda yarışdan kənarlaşdırması idi.

Yarışın ilkin mərhələsi dairəvi sistemlə keçiriləcək və 16 oyunçudan yalnız 8-i pley-offa yüksələcək. Turnir fevralın 26-dək davam edəcək.

# Pekin-2022 XXIV Qış Olimpiya Oyunlarının açılış mərasimindən yadda qalan məqamlar















# Skandinaviya təmsilçiləri olimpiadanın favoriti hesab olunurlar

## *Medal sayında şimal qonşularımız liderliyi ələ alıb*

XXIV Qış Olimpiya Oyunlarında iştirak edən ölkələrin fəxri mükafatlar uğrunda mübarizəsi davam edir. Pekin olimpiadasında yarışlar fevralın 3-də başlasa da, idmançılar yalnız fevralın 5-də final həyəcanını yaşayıblar. Budəfəki qış olimpiadasında ilk medalı Norveç yığmasının üzvü əldə edib. Qadın xizəkçilərin skiatlon yarışlarında Tereze Yohauq bütün rəqiblərini qabaqlayaraq Olimpiya çempionu titulunu qazanıb. İdmançı karyerasında ilk dəfə şəxsi kateqoriyada medal kolleksiyasına qızıl mükafatı əlavə edib. Həmin növdə Rusiya Olimpiya Komitəsinin idmançısı Nataliya Nepryaeva gümüş, avstriyalı Tereza Ştadlober isə bürünc medala sahib olublar. Məlumat üçün bildirək ki, norveçli idmançı T.Yohauq Vankuver-2010 Qış Olimpiya Oyunlarında estafet yarışlarında birinci olub. Soçi-2014-də gümüş və bürünc medal qazanan atlet 2018-ci ildə Pxençxanda təşkil olunan Olimpiadada diskvalifikasiya səbəbindən iştirak etməyib. Norveç yığmasının Pekin-2022-də əsas rəqibi hələ ki, isveçlilər və rusiyalılar sayılır.

Olimpiadada yalnız 3 qızıl medalı olan yığma komanda İsveç millisidir. Fristaylın moqul növündə, 5000 metr konkisürmədə, dağ xizəyini nəhəng slalomunda Skandinaviya təmsilçiləri qızıl medala yiyələniblər.

Bu günə qədər 7 medal əldə edən ROK idmançıları medal sayına görə liderliyi qorumağa çalışırlar. Xizəksürmənin skiatlon üzrə qarışıq növündə 30 km məsafəyə kişilərin yarışında Aleksandr Bolşunovun qızıl, Denis Spiçovun gümüş medalı rusiyalılara böyük ümid verib. Dünən ROK-u fiqurlu konkisürmə yarışlarında təmsil edən komanda ümumi yekunlara əsasən birinciliyi əldən verməyib. Onlar əsas rəqibləri olan ABŞ və Yaponiyanı bu növdə geridə qoyublar. Aktivində 5 medalı olan Niderland millisi ROK idmançılarını daban-dabana izləyir. "Zanbaqlar ölkəsi"ndən gələn idmançılar 3 gün ərzində 2 qızıl, 2 gümüş və 1 bürünc mükafata sahib çıxıblar.

Çinlilər olimpiadada hələ ki, iki qızıl və iki gümüş medal sevincini yaşayıblar. Şort-trek yarışlarında finişi italiyalı və macarıstanlı rəqiblərindən daha tez keçən ev sahibləri qarışıq növdə qızıl medallara layiq görülüblər.

Olimpiadadan əvvəl verilən proqnozlar hələ ki, özünü doğrultmur. Proqnozlara görə, Norveç idmançıları bu olimpiadada əsas favoritlərdən biri sayılır və medallara görə onlar rəqibləri üçün əlçatmaz olmalıdırlar. Qeyd edək ki, skandinaviyalılar təmsil olunduqları bütün idman növlərində mükafatçılar sırasında yer almağa namizəddirlər. Qarşıdakı günlərdə onlar nəyə qadir olduqlarını sübut etməyə çalışacaqlar. Hazırda 2 qızıl və 2 bürünclə Norveç 6-cı yerlə kifayətlənir. İtaliya yığması 5 medalla (1 qızıl, 3 gümüş və 1 bürünc) irəliləyir.

Olimpiadada Kanada yığmasının da şansları yüksək qiymətləndirilir. "Cökə yarpaqlılar"ın aktivindəki medallar yığma komandanı ilk onluqda saxlayır. Okeanın o tayından mübarizə üçün Asiyaya gələn kanadalıların ilk qızıl medalını sloupstayl növündə yarışan snoubordçu Maks Perro əldə edib. Onun komanda yoldaşları fristaylın moqul növündə, eləcə də konkisürmənin 3000 metr məsafə yarışlarında fərqləniblər. Pekin-2022-də qızıl medal əldə edən ölkələrin siyahısında Avstraliya və Yeni Zelandiyanın da adları yer alıb. ABŞ yığması isə passivliyi ilə diqqət çəkir. Onlar hələ də qızıl medal əldə etməyən ölkələr sırasındadırlar. Ümumilikdə fevralın 7-nə qədər olan məlumata görə Pekin-2022 Qış Olimpiya Oyunlarında 19 ölkənin idmançıları fərqləniblər. Mübarizə isə hələ davam edir.

### Pekin-2022 Qış Olimpiya Oyunlarında medal qazanan idmançılar:

**5 fevral**

**Xizək, skiatlon, qarışıq növ, 15 km (Qadınlar)**

1. Tereza Yohauq (Norveç)
2. Natalya Neprayeva (Rusiya)
3. Tereza Ştadloper (Avstriya)



**Biatlon, Qarışıq estafet**

1.Norveç
2. Fransa
3. ROK



**Konkisürmə, 3000 metr (Qadınlar)**

1. İren Sxauten (Niderland)
2. Frençeska Lollobricida (İtaliya)
3. İzabel Vaydeman (Kanada)

**Tramplindən tullanma, orta tramplin, şəxsi birincilik (qadınlar)**

1. Ursa Boqatay (Sloveniya)
2. Katarina Althaus (Almaniya)
3. Nika Krijnar (Sloveniya)



**Fristayl, Moqul (Kişilər)**

1. Valter Valberq (İsveç)
2. Mikael Kinqsburi (Kanada)
3. İkuma Horosima (Yaponiya)



**Şort-trek (Qarışıq)**

1. Çin
2. İtaliya
3. Macarıstan



**6 fevral**

**Konkisürmə, 5000 m (Kişilər)**

1. Van der Pul Nils (İsveç)
2. Patrik Rust (Niderland)
3. Hallqeyr Enqebroten (Norveç)



**Xizək, skiatlon, Qarışıq növ, 30 km (Kişilər)**

1. Aleksandr Bolşunov (ROK)
2. Denis Spiçov (ROK)
3. İvo Niskanen (Finlandiya)



**Tramplindən tullanma, orta tramplin, şəxsi birincilik (Qadınlar)**

1. Reyu Kobayasi (Yaponiya)
2. Manuel Fettner (Avstriya)
3. David Kubaçkiy (Polşa)



**Kirşə, təknəfərlik (Kişilər)**

1. Yohannes Lüdviq (Almaniya)
2. Volfqanq Kindl (Avstriya)
3. Dominik Fişnaller (İtaliya)



**Snoubord, sloupstayl (Qadınlar)**

1. Zoi Sadovski-Sinnott (Yeni Zelandiya)
2. Culiya Marino (ABŞ)
3. Kodi Tess (Avstraliya)



**Fristayl, Moqul (Qadınlar)**

1. Cakara Entoni (Avstraliya)
2. Ceylin Kauf (ABŞ)
3. Anastasiya Smirnova (ROK)



**7 fevral**

**Dağ xizəyi, sürətli eniş (Kişilər)**

1. Beat Foyç (İsveçrə)
2. Joan Klare (Fransa)
3. Mattias Mayer (Avstriya)



**Snoubord, sloupstayl (Kişilər)**

1. Maks Parro (Kanada)
2. İmin Su (Çin)
3. Mark Makmorris (Kanada)



**Konkisürmə, 1500 m (Qadınlar)**

1. İren Vyüst (Niderland)
2. Mixo Takaqi (Yaponiya)
3. Antoynette de Yonq (Niderland)



**Fiqurlu konkisürmə, komanda, ümumi yekun**

1. ROK
2. ABŞ
3. Yaponiya



**Biatlon, fərdi yürüş, 15 km (Qadınlar)**

1. Deniz Hermann (Almaniya)
2. Anais Şevalye (Fransa)
3. Marte Reyseland (Norveç)

**Dağ xizəyi, nəhəng slalom (Qadınlar)**

1. Sara Hektor (İsveç)
2. Federika Brinyone (İtaliya)
3. Lara Qut-Behrami (İsveçrə)

Olimpiya dünyası





# Velosiped İdmanı Federasiyasının geniş tərkibli iclası olub

Azərbaycan Velosiped İdmanı Federasiyasının (AzVİF) prezidenti Mədət Quliyevin sədrliyi ilə qurumun geniş tərkibli iclası keçirilib. İclasda görülmüş işlərlə bağlı hesabatlar dinlənilib, ilin əsas idman yarışlarında iştirak edəcək rəqabətə davamlı, güclü komanda formalaşdırılması üçün bütün qüvvələrin səfərbər edilməsinin vacibliyi qeyd olunub və bu istiqamətdə aidiyyəti üzrə tapşırıqlar verilib.

* * *

Beynəlxalq Olimpiya Komitəsi və Beynəlxalq Velosipedçilər İttifaqının dəstəyi, Azərbaycan Milli Olimpiya Komitəsi və Azərbaycan Velosiped İdmanı Federasiyasının (AzVİF) təşkilatçılığı ilə velosiped məşqçiləri üçün keçirilən texniki kursları bitirmiş məşqçilərə sertifikatlar təqdim edilib. Kursları uğurla başa vuranları təbrik edən federasiyanın prezidenti Mədət Quliyev velosiped idmanının inkişafı üçün bacarıqlı məşqçilərə ehtiyac duyulduğunu və bu istiqamətdə onların xidmətlərindən istifadə ediləcəyini vurğulayıb.

# *Sərbəst və yunan-Roma güləşçiləri Azərbaycan birinciliyində yarışacaqlar*

Fevralın 8-dən 10-dək sərbəst və yunan-Roma güləşi üzrə gənclər (U-20) arasında Azərbaycan birinciliyi keçiriləcək. Milli komandalara seçim xarakteri daşıyacaq ölkə birinciliyi Bakı İdman Sarayında təşkil olunacaq. Azərbaycan Güləş Federasiyası, Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə keçiriləcək yarış beynəlxalq və milli dərəcəli hakimlər tərəfindən idarə olunacaq. Yarışın proqramına əsasən, fevralın 8-də yunan-Roma güləşi üzrə 55 kq, 60 kq, 63 kq, 67 kq, 72 kq, 77 kq və 82 kq çəki dərəcələrində qaliblər müəyyənləşəcək. Bu gün saat 16:00-da həmçinin birinciliyin təntənəli açılış mərasimi də keçiriləcək. Növbəti gün klassik güləşdə 87 kq, 97 kq və 130 kq, sərbəst güləşdə isə 57 kq, 61 kq, 65 kq və 70 kq çəki dərəcələrində medalçıların adına aydınlıq gələcək. Yarışın sonuncu günündə isə 74 kq, 79 kq, 86 kq, 92 kq, 97 kq və 125 kq çəki dərəcələrində ölkənin ən güclü sərbəst güləşçiləri müəyyənləşəcək.

# Məşqçi-müəllimlər üçün seminarlara start verilib

Fevralın 5-də Azərbaycan Voleybol Federasiyasının Regional İnkişaf Mərkəzi və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə 8-10 yaşlı uşaqlar arasında voleybol idman növünün inkişaf etdirilməsi məqsədi ilə məşqçi-müəllimlərin seminarlarına start verilib. Seminarların fevral-mart aylarında təşkili nəzərdə tutulub. İdman və ümumtəhsil məktəblərinin məşqçi-müəllimləri üçün nəzərdə tutulan seminarlar Bakı ilə yanaşı, regionlarda da keçiriləcək.

Nəzəri və praktik hissədən ibarət olacaq seminara 2021-ci ilin sentyabr ayında Sloveniyada təşkil olunan beynəlxalq məşqçi forumunda iştirak etmiş mütəxəssislərimiz rəhbərlik edəcəklər.

İlk seminar fevralın 5-də Bakıda "Sərhədçi" İdman Olimpiya Mərkəzində baş tutacaq. Sonda iştirakçılara sertifikat, toplar və metodik kitablar təqdim olunacaq.

# Şahmatçılarımız Budapeştdə çempion oldular

Macarıstanın paytaxtı Budapeştdə şahmat üzrə beynəlxalq turnir keçirilib. Yarışın beynəlxalq usta normalı turnirində ölkəmizi Azər Mirzəyev təmsil edib. Dairəvi sistem üzrə keçirilən yarışda zəka sahibimiz 8 turdan 7 xal toplayaraq vaxtından əvvəl turnirin qalibi adını qazanıb.

Yarışın beynəlxalq qrosmeyster normalı turnirində isə ölkəmiz Kənan Qarayevlə təmsil olunub. Şahmatçımız 9 turda 6 xal toplayaraq birinci yerə layiq görülüb.

# Azərbaycan Gəncləri Gününə həsr olunan stolüstü tennis turnirinə yekun vurulub

Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Stolüstü Tennis Federasiyası və Kənd Təsərrüfatı Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin birgə təşkilatçılığı ilə aqrar sahədə çalışan əməkdaşlar arasında Azərbaycan Gəncləri Gününə həsr olunan stolüstü tennis turnirinə yekun vurulub. Turnirdə birincilik uğrunda Kənd Təsərrüfatı Nazirliyinin Mərkəzi Aparatı və nazirliyin tabeli qurumlarının 46 əməkdaşı 8 yarımqrupa bölünərək yarışıblar.

Final mərhələsində 16 nəfər mübarizə aparıb.

Stolüstü Tennis Federasiyasının böyük zalında keçirilən oyunlar beynəlxalq dərəcəli hakimlər tərəfindən idarə edilib.

Yekun nəticələrə görə Kənd Təsərrüfatı Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Fuad Məmmədov bütün rəqiblərinə qalib gələrək birinci yerə sahib olub. Aqrar Tədarük və Təchizat ASC-nin əməkdaşı Eston Zeynalov 2-ci, Qobustan Dövlət Aqrar İnkişaf Mərkəzinin əməkdaşı Rəşad Dəmirov isə 3-cü yerə layiq görülüb.

Çempionatda ilk üç yeri tutan və ən yaxşı qadın iştirakçı nominasiyası üzrə qalib gələnlərə fəxri fərman, pul mükafatı və hədiyyələr təqdim edilib. Azərbaycan Stolüstü Tennis Federasiyası tərəfindən də qaliblərə xüsusi mükafatlar təqdim olunub.



# İradi və mənəvi keyfiyyətlərin idmançılara aşılanması əsas şərtdir

***Həyatda qəhrəman olmaq, ətrafdakıların sevimlisinə çevrilmək, vətənini, xalqını, millətini sevdiyini sübut etmək üçün heç də müharibə meydanı vacib deyil. Bunun üçün hər kəs çalışdığı sahədə, məşğul olduğu işdə, oxuduğu təhsil ocağında məsuliyyətlə çalışmalı, oxumalı, işini ən yüksək səviyyədə görməyə səy göstərməlidir. Deməli, hər bir uşaq təhsil aldığı məktəbdə yaxşı oxumalı, davranışı, nizam-intizamı ilə yoldaşlarına nümunə olmalı, məktəbin ictimai işlərində fəal iştirak etməli, böyüklərə hörmət, kiçiklərə qayğı ilə yanaşmalıdır.***

Bütün bunları uşaqların şüurlu dərk etməsi üçün, valideynlərlə yanaşı, ümumtəhsil məktəbləri, məktəbdənkənar idman müəssisələri, idman klubları böyük işlər görməlidir. Bu sahədə uşaqların yüksək əxlaqi və mənəvi mədəniyyətinin, intellektual səviyyəsinin inkişaf etdirilməsi üçün bütün kollektivin, eləcə də, məşqçi-müəllimlərin üzərinə böyük vəzifələr düşür.



İdman məktəblərini uşaqların yalnız bilik və bacarıqlarının yiyələndiyi bir yer kimi qiymətləndirmək düzgün olmazdı. Məşqçilər unutmamalıdır ki, təlim (məşq) uşağın mənəvi həyatının çox mühüm sahəsidir, lakin yeganə sahəsi deyildir. İdman məktəbləri uşaq kollektivinin elə çoxsahəli mənəvi həyatıdır ki, burada məşqçi-müəllimlər və idmançıları çoxlu sayda maraq və meyillər birləşdirir. Bura gündəlik məşğələlərlə yanaşı, təlim-məşq toplanışları, yarışlar, yarışlara kollektiv şəkildə baxış, görkəmli idmançılarla görüşlər, idman bayramları, gəzintilər, ekskursiyalar və s. daxildir.

## Vətənpərvərlik mövzusunun tarixi çox qədimdir

Uşaqlar da böyüklər kimi cəmiyyət qarşısında məsuliyyət daşıyırlar. Vətənə sədaqət, dövlət rəmzlərinə hörmət, tarix və mədəniyyət abidələrini, ətraf mühiti qorumaq bütün vətəndaşlar kimi onların da borcudur.

Məşqçi-müəllimlər bilməlidirlər ki, məhz bu baxımdan uşaqlarda iradi və mənəvi keyfiyyətlərin aşılanmasında vətənpərvərlik mövzusunda aparılan söhbətlər çox böyük əhəmiyyət kəsb edir.



Bütün bunlar ümumtəhsil məktəbləri ilə yanaşı, məktəbdənkənar idman müəssisələrində nəzəri məşqlərdə, gündəlik söhbətlərdə uşaqlara çatdırılmalıdır. Bu sahədə məşqçi-müəllimlərin yetirmələrinə gündəlik şəxsi nümunəsi böyük əhəmiyyət kəsb edir. Deməli, idman məktəblərində uşaqların fiziki tərbiyəsi ilə yanaşı, həm də iradi və mənəvi tərbiyəsi də paralel inkişaf etdirilir. Əlbəttə, iradi və mənəvi tərbiyənin mühüm tərkib hissələrindən biri vətənpərvərlik, xalqına doğma yurda məhəbbətlə bağlılıqdır.

Vətənpərvərlik mövzusunun tarixi çox qədimdir. Vətənə məhəbbət ən ali bir hiss kimi həmişə insana, onun ömür yoluna günəş kimi işıq saçmış, həyatının mənasını zənginləşdirmişdir. Tarix boyu dahilər, böyük filosof və mütəfəkkirlər vətən haqqında, onun müqəddəsliyi barədə qiymətli əsərlər yazmış, gözəl fikirlər söyləmiş, həmişə insanları ana vətəni sevməyə, onun qədrini bilməyə, göz bəbəyi kimi qorumağa səsləmişlər.

Məşqçi-müəllimlər yeniyetmə və gənc idmançılara qarşı daha diqqətli olmalıdırlar.

Məşqçilər asan hərəkətlərdən, çətin hərəkətlərə keçərkən daim uşaqları ruhlandırmalıdır. Onlarda inam yaratmalı, yarışlarda inamlı çıxışlarının təmin edilməsində uşaq təsir etmək, emosiyalarını tənzimləmək, lazımi məqamlarda coşdurmağı bacarmalıdırlar. Məşqçilər nəzərə almalıdırlar ki, idmançının inamlı çıxışı təmin edilməsə onların maraqları tədricən azala bilər. Bütün bunlarla yanaşı, məşqçilər unutmamalıdırlar ki, onların məsləhətləri ilə daim idmançıların sərbəstliyi də təmin olunmalıdır ki, potensial imkanları üzə çıxsın.

Baxmayaraq ki, məşqçilərin qarşısında duran əsas məqsəd yüksək dərəcəli idmançılar hazırlamaqdır, lakin məşğul olanların əqli və zehni inkişafı həmişə birinci planda olmalıdır. Təhsil sistemində öyrənmənin məzmunu öyrənənlərdən daha çox düşünməyi, onların idrak fəaliyyətlərinin inkişaf etdirilməsini tələb edir. Bunu belə izah etmək olar ki, əgər idmançı məşqdə öyrəndiklərini düzgün, şüurlu dərk etmirsə, keçirilənləri kor-koranə, fərqinə varmadan təkrarlayırsa, bu, onun idrakının inkişaf etməsinə, şəxsiyyətinin lazımi səviyyədə formalaşmasına, ustalığın düzgün və lazımi dərəcədə artmasına kömək edə bilməz. Məşqçi-müəllimlər bu sahədə, əlbəttə, yeniyetmə və gənc idmançılara qarşı daha diqqətli olmalıdırlar.

Hər bir məşqçinin arzusu, sözsüz ki, həmişə yetirmələrini mükafatçılar sırasında görməkdir. Ancaq, təbiidir ki, komandanın bütün üzvləri yarışlarda qarşıya qoyulmuş tapşırığı yüksək səviyyədə yerin yetirə bilməz. Bütün bunlara baxmayaraq, məşqçi-müəllimlər hər vasitə ilə həmişə yetirmələrini istər məşğələdə, istərsə də yarışlarda potensial imkanlardan maksimum yararlanmağa ruhlandırmalıdır.

***Hümbət Cavadov,***
***Sərbəst güləş üzrə SSRİ idman ustası***

## Daha bir federasiyada prezident seçkiləri keçirildi



Azərbaycan Həndbol Federasiyasının ümumi yığıncağı keçirilib. Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə çıxış edən gənclər və idman naziri Fərid Qayıbov iştirakçıları salamlayıb, konfransın işinə uğurlar arzulayıb.

Sonra Azərbaycan Həndbol Federasiyasının son illərdəki fəaliyyəti barədə hesabat məruzəsi dinlənilib və federasiya rəhbərliyinə yeni seçkilər keçirilib. Saleh Məmmədov yenidən Azərbaycan Həndbol Federasiyasının prezidenti seçilib.

Yığıncaqda Orxan Abbasov və Rəfiqə Şabanova federasiyanın vitse-prezidentləri seçiliblər. Konfransda Həndbol Federasiyası İdarə Heyətinə də seçkilər keçirilib. İsgəndər Əsgərov, Ernest Ağakişi, Vaqif Əliyev, Ələkbər Ağakişiyev, Lyudmila Şubina və Vidadi Əliyev İdarə Heyətinə üzv seçiliblər.

Tədbirdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə çıxış edib, yeni heyətə uğurlar arzulayıb.

Yığıncaqdan sonra federasiya prezidenti Saleh Məmmədov jurnalistlərin suallarını cavablandırıb.

## Naxçıvan şahmat üzrə Azərbaycan çempionatına ev sahibliyi edir

Naxçıvan Muxtar Respublikasında kişi şahmatçılar arasında Azərbaycan çempionatı start götürüb. Yarışın açılış mərasimi "Gənclik" Mərkəzində keçirilib. Tədbirdən öncə Azərbaycan Respublikasının



gənclər və idman naziri Fərid Qayıbov, Azərbaycan Respublikası Şahmat Federasiyasının prezidenti Mahir Məmmədov, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov, Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı və digər nümayəndələr xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edib, önünə tər gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər. Daha sonra qonaqlar Heydər Əliyev Muzeyində olublar.

Kişilər arasında şahmat üzrə keçiriləcək Azərbaycan çempionatının açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov qonaqları salmayaraq bildirib ki, Azərbaycanda şahmata tarixən hər zaman önəm verilmişdir və hər zaman şahmatçılarımız dünyada öz layiqli yerlərini tutublar. O, bu gün dünya şahmatının ən yaxşıları içərisində Azərbaycanın 2 qrossmeysterinin də yer aldığını bildirib. Federasiya sədri Naxçıvan Muxtar Respublikasında da şahmata böyük diqqət və qayğı göstərilməsindən danışaraq bildirib ki, muxtar respublikda şahmatın bütün orta məktəblərdə tədris olunması imkan verir ki, bu idman növünün davamlı, yaş aralığı olmadan inkişafı təmin edilsin.

Azərbaycan çempionatının yenidən Naxçıvanda keçirilməsinin sevindirici və əlamətdar hal olduğunu diqqətə çatdıran Azərbaycan Şahmat Federasiyasının prezidenti Mahir Məmmədov deyib ki, bu qərarın verilməsinə səbəb muxtar respublikada mükəmməl şahmat infrastrukturunun olması, yerli mütəxəssislərin, yerli şahmat federasiyasının yüksək təşkilatçılıq səviyyəsinə malik olmasıdır. Mahir Məmmədov bu münasibətlə Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədrinə minnətdarlığını bildirib. Vurğulanıb ki, artıq ikinci ildir ki, bu mötəbər yarışın ünvanı Naxçıvandır. Federasiya prezidenti ümumtəhsil məktəblərində şahmatın tədris olunmasının dünya şahmat tarixində unikal hadisə olduğunu bildirib. O, bunun nəticəsində hazırda Naxçıvanın öz qrossmeysteri, beynəxalq ustaları, FİDE ustaları, FİDE və beynəlxlaq hakimlərinin olduğunu diqqətə çatdırıb.

Mahir Məmmədov ardıcıl olaraq ikinci dəfə Naxçıvanda yeni formatda keçirilən Azərbaycan çempionatında iştirak edən hər bir şahmatçıya uğurlar arzulayıb.

Yarışın baş hakimi Lütfiyar Rüstəmov çempionatın yüksək səviyyədə təşkil olunması üçün yaradılan şəraitə görə minnətdarlıq edib, qaydalar haqqında məlumat verib.

Sonra şahmat çempionatının püşkü atılıb.

Qeyd edək ki, 24 zəka sahibinin mübarizə apardığı yarışda ilk turun ilk gedişlərini gənclər və idman naziri Fərid Qayıbov və AŞF-nin vitse-prezidenti Seymur Talıbov edib.

## Tanınmış pedaqoqun 85 yaşı tamam olur



Dosent, pedaqogika üzrə fəlsəfə doktoru Baloğlan Quliyevin 85 yaşı tamam olur. O, yarım əsri əhatə edən pedoqoji fəaliyyəti dövründə yüksək ixtisaslı kadrlar hazırlanmasında səmərəli işlər görüb.

Baloğlan Sarı oğlu Quliyev 1937-ci ildə Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndində anadan olub. Məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında ali təhsil alıb. 1961-ci ildə akademiyanı bitirdikdən sonra 10 il texniki peşə məktəbində, orta məktəbdə bədən tərbiyəsi müəllimi işləyib.

1971-ci ildə onu Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutuna imtahan verərək, institutun aspiranturasına daxil olub. B.Quliyev həm aspiranturada oxuduğu illərdə, həm də sonralar ETPEİ-də kiçik elmi işçi, böyük elmi işçi, "Bədən tərbiyəsi və hərbi hazırlıq" şöbəsinin müdiri vəzifələrində işləyib. 1979-cu ildə "Fiziki tərbiyə üzrə nəzəri məlumatları mənimsəməyin şagird şəxsiyyətinə təsiri" mövzusunda dissertasiya müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi almışdır.

B.Quliyev 1983-cü ildən 1996-cı ilədək Azərbaycan Dövlət Pedaqoji Universitetinin İdman fənləri kafedrasına rəhbərlik edib. 1983-cü ildən ADPU-nun dosenti olan B.Quliyevin fiziki tərbiyə üzrə yüksək ixtisaslı mütəxəssis-müəllimlərin hazırlanmasında, respublika və beynəlxalq dərəcəli idmançıların yetişdirilməsində böyük zəhmət payı olub.

Baloğlan müəllim Azərbaycan Respublikasının "Fəxri Bədən Tərbiyəsin və İdman işçisi", güləş üzrə SSRİ idman ustasıdır. Azərbaycan SSR Maarif Nazirliyi (indiki AR Təhsil Nazirliyi) və Bədən Tərbiyəsi və İdman Komitəsi tərəfindən (hazırki AR Gənclər və İdman Nazirliyi) 5 dəfə fəxri fərmanla təltif edilmiş, eyni zamanda Azərbaycan Elmi Tədqiqat Pedaqoji Elmlər İnstitutunun (AR Təhsil İnstitutu) və Azərbaycan Dövlət Pedaqoji Universitetinin və İdman təşkilatlarının ictimai fəaliyyətinə görə dəfələrlə fəxri fərmanlarla təltif olunub. "Şöhrət" diplomuna və "Qızıl Qələm" mükafatı və Laureatlarına layiq görülən mütəxəssis eləcə də Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçilərinin Həmkarları İttifaqının fəxri üzvüdür. O, Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-Metodik Şurasının, "Milli Pedaqogika məktəbi" elmi-pedaqoji jurnalının redaksiya heyətinin, ADPU-nun 15 il və fakultə Elmi Şurasının isə 32 ilə yaxın üzvü, fakültə Elmi Şurasının katibi, "Məktəbdə bədən tərbiyəsi" məcmuəsinin redaktoru olub.

B.S.Quliyev müəllim və magistrantların, tədqiqatçı tələbələrin yararlanması məqsədilə ölkənin "Azərbaycan məktəbi", "Məktəbəqədər və ibtidai təhsil", "Pedaqoji Universitet xəbərləri", ARTİ-nun "Elmi əsərləri" kimi elmi-nəzəri və metodiki jurnallarında vaxtaşırı çıxış edir.

B.Quliyevin elmi-metodiki fəaliyyətinə diqqət yetirsək məlum olur ki, onun 200-dən çox tədqiqat işi çap olunmuş bunlardan da 61-i dərs və metodiki vəsaiti, tədris proqramı, 2-si monoqrafiya, 6-sı xaricdə çap olunmaqla 9 Beynəlxalq elmi-metodik konfrans materialları, jurnal və qəzet məqalələridir.

85 yaşlı yubilyar Baloğlan müəllimə cansağlığı və elmi-pedaqoji fəaliyyətində nailiyyətlər arzulayırıq.

*Eldar Abdullayev,*
*ADPU-nun kafedra müdiri*

*REDAKSİYANIN POÇTUNDAN*

## Yeniyetmə və gənc idmançılarla görüş

Astara Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə yeniyetmə və gənc idmançılarla görüş olub. Görüşdə çıxış edən Astara Rayon Gənclər və İdman İdarəsinin rəisi vəzifəsini icra edən R.Şirinov, idarənin rəis müavini İ.Cəfərov, Vətən müharibəsi qazisi Ə.Əskərov iştirak edib. Tədbir iştirakçıları əvvəlcə Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Sonra klubda idmançıların təlim-məşq prosesi izlənilib.



Görüş iştirakçıları ölkəmizdə, o cümlədən Astara rayonunda gənc nəslin fiziki-mənəvi inkişafında idman siyasətinin icrası istiqamətində görülmüş işlərdən, 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun əsgər və zabitlərinin, o cümlədən idmançı gənclərin göstərdiyi qəhrəmanlıqlarından danışıblar.

Sonda yeniyetmə və gənc idmançıların bir qrupuna nümunəvi çıxışlarına görə Astara Rayon Gənclər və İdman İdarəsinin fəxri fərmanları təqdim olunub.

Qeyd edək ki, 2020-ci ildən Astara şəhərində şəhid Pəncəli Teymurov adına Astara Budo Döyüş Növləri Klubu fəaliyyət göstərir. Klubun rəhbəri VI dan qara kəmər ustası, dünya, Avropa və beynəlxalq yarışların mükafatçısı Ramiq Rəhmanov və məşqçisi budo döyüş növləri üzrə III dan qara kəmər ustası, dünya, Avropa və beynəlxalq yarışların mükafatçısı Zamin Baxşıyevdir. Hazırda burada 41 yeniyetmə və gənc müntəzəm məşq keçir.

*Zəfər Orucoğlu,*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

## Hakimlik imtahanları müvəffəqiyyətlə başa çatdı

Beynəlxalq Gimnastika Federasiyası (FIG) tərəfindən 2022-2024-cü illəri əhatə edən növbəti Olimpiya dövrünün müvafiq qaydalarına əsasən parkur və akrobatika gimnastikası üzrə hakimlik imtahanları keçirilib. COVID-19 pandemiyası ilə əlaqədar onlayn qaydada keçirilən imtahanlarda parkur üzrə 2, akrobatika gimnastikası üzrə isə 8 təmsilçimiz iştirak edib.

Təmsilçilərimizin hər biri imtahanı müvəffəqiyyətlə başa vuraraq beynəlxalq hakimlik kateqoriyasına yiyələniblər.

Qeyd edək ki, FIG qaydalarına əsasən, hər Olimpiadadan sonrakı yeni Olimpiya dövründə gimnastika idman növləri üzrə qaydalara dəyişikliklər edildiyi üçün hakimlər sahib olduqları hakimlik kateqoriyasını təsdiqləməli və ya daha yüksək dərəcə almalıdırlar.

Xatırladaq ki, beynəlxalq kateqoriyaya yiyələnmək üçün hakimlər əvvəlcə FIG-nin təşkil etdiyi kurslarda iştirak edir, daha sonra imtahan verirlər.

## Super Liqada ikinci dövrə başlayır

Bu gün qadın voleybolçular arasında Azərbaycan Super Liqasında ikinci dövrənin növbəti oyunlarına start veriləcək. Meydana əvvəlcə "Abşeron" və "Azərreyl" komandaları çıxacaq. Oyun saat 16:00-da başlayacaq. Bu qarşılaşmadan 2 saat sonra "Murov" - UNEC komandalarının oyununa start veriləcək.



Fevralın 11-də isə ikinci dövrənin son oyunları keçiriləcək. Altıncı turun ilk qarşılaşması saat 16:00-da "Abşeron" - "Murov" komandaları arasında olacaq. Dövrəyə "Azərreyl" - UNEC görüşü ilə yekun vurulacaq. Oyunun start fiti saat 18:00-da veriləcək.

Hər iki turun görüşləri Azərbaycan Voleybol Federasiyasının idman zalında təşkil olunacaq.

Qeyd edək ki, pandemiya səbəbindən karantin qaydalarına uyğun keçirilən oyunlara azarkeşlər buraxılmayacaq.

# FUTBOL



## AFFA-nın 30-cu konfransı keçirilib

Bakıda AFFA-nın 30-cu konfransı keçirilib.

AFFA-nın prezidenti Rövnəq Abdullayev konfrans iştirakçılarını salamlayaraq deyib: “COVID-19 pandemiyasının yaratdığı çətinliklərlə əlaqədar ötən konfransımız onlayn formatda keçirilmişdi. Yenidən canlı ünsiyyətdə olmaq imkanı əldə etdiyimiz üçün hər birinizi təbrik edirəm. Ümidvaram ki, növbəti konfransımızda pandemiya haqqında tamamilə keçmiş zamanda danışacağıq”.

Konfransın Azərbaycan Gəncləri Günündə təşkil olunmasının önəmini vurğulayan R.Abdullayev bildirib: “Ulu öndər Heydər Əliyevin 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən, hər il fevralın 2-si Azərbaycan Gəncləri Günü kimi qeyd olunur. Bu münasibətlə Azərbaycan futbol ailəsi adından gənclərimizi təbrik edirik. Hesabat dövründə koronavirus pandemiyasına baxmayaraq, AFFA tərəfindən planlaşdırılan tədbirlər həyata keçirilib. Təbii ki, ilk növbədə Avro-2020-nin Bakıda təşkil olunmuş 4 oyununu xüsusi qeyd etməliyik. Bu, ölkəmizin nəinki futbol, ümumiyyətlə, idman tarixində xüsusi əhəmiyyətə malik hadisələrdən biri idi. Avro-2020-nin oyunlarının təşkili ilə bağlı namizədliyimizin irəli sürülməsi prosesindən başlayaraq bütün mərhələlərdə bizə böyük dəstək göstərən dövlətimizə, xüsusilə Azərbaycan Prezidentinə futbol ictimaiyyəti adından bir daha təşəkkürümü bildirirəm. Turnirin bu səviyyədə təşkil olunması təkcə futbolumuzun deyil, ölkəmizin və dövlətimizin böyük uğurudur”.

Sonra AFFA-nın hesabat dövründəki fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

AFFA-nın icraçı vitse-prezidenti Elxan Məmmədov hesabat məruzəsi ilə çıxış edib. Bildirib ki, AFFA-nın strategiyasına uyğun olaraq növbəti mövsümdə Premyer Liqada komandaların sayı 10-a çatacaq. Bu istiqamətdə hazırlıq işləri gedir və qeyri-adi bir hadisə olmasa, yenidən 10 komandalı Azərbaycan Premyer Liqasını izləyəcəyik. Bölgə futbolunun hər zaman diqqət mərkəzində olduğunu qeyd edən icraçı vitse-prezident pandemiya ilə əlaqədar bir müddət bu sahədə çətinliklərin olduğunu, lakin karantin qaydaları yumşaldıqdan sonra AFFA rəsmilərinin müxtəlif bölgələrə silsilə səfərlərinin təşkil olunduğunu, uşaq komandalarına idman geyimlərinin, topların verildiyini, müxtəlif bölgələrdə infrastruktur layihələrinin icrasının davam etdirildiyini bildirib. Pandemiyanın uşaq və gənclər arasında təşkil olunan yarışlara da təsirsiz ötüşmədiyini deyən E.Məmmədov çətinliklərə baxmayaraq, liqaların bərpa edildiyini və yaxın zamanda ən kütləvi turnir olan “Coca-Cola məktəbli kuboku” yarışına da yenidən start verilməsinin planlaşdırıldığını qeyd edib.

E.Məmmədov Avro-2020-nin 4 oyununun Bakıda təşkil olunması barədə də məlumat verib və bu yarışın ölkəmizin idman tarixində xüsusi əhəmiyyətə malik hadisə olduğunu vurğulayıb.

Sonra AFFA-nın maliyyə və mühasibatlıq departamentinin rəisi Xalid Cavadov və müstəqil auditor Elnur Kazımov hesabat məruzələri ilə çıxış ediblər.

Avro-2020 ilə bağlı videoçarxın nümayişindən sonra AFFA-nın infrastruktur şöbəsinin müdiri Kamran Vəliyev “Avro-2020-nin irsi” mövzusunda, marketinq və sponsorluq departamentinin müdiri Tural Piriyev isə “Futbolun İnkişafı Fondu” çərçivəsində tətbiq olunacaq yeni layihə barədə təqdimatla çıxış ediblər. Ardınca Hakimlər Komitəsinin sədri Fritz Stuçlik VAR sisteminin tətbiqi ilə bağlı görülən işlər barədə ətraflı məlumat verib.

Konfransda iştirak edən UEFA nümayəndəsi Jozef Kliment və FIFA rəsmisi Nodar Axalkatsi AFFA-ya və Azərbaycan futbol ailəsinə gələcək fəaliyyətində uğurlar arzulayıblar.

Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə qeyd edib ki, hesabat dövründə futbolun inkişafı, kütləviliyinin təmin olunması istiqamətində çoxsaylı işlər görülüb və layihələr icra olunub.

Çıxışlardan sonra Avro-2020-nin Bakıda keçirilmiş oyunlarında və AFFA-nın müxtəlif tədbirlərində səmərəli fəaliyyətinə görə 12 könüllü plaketlə təltif olunub. Plaketləri AFFA-nın prezidenti Rövnəq Abdullayev təqdim edib.

Konfransa yekun vuran AFFA prezidenti iştirakçılara uğurlar arzulayıb.

Daha sonra AFFA-nın İcraiyyə Komitəsinin növbəti iclası keçirilib.

İclasda Tural Piriyevin “Futbolun İnkişafı Fondu”nun (FİF) icraçı direktoru təyin olunması, müvafiq yaş qrupundan ibarət Azərbaycan millisinin Türkiyənin Konya şəhərində keçiriləcək V İslam Həmrəyliyi Oyunlarında iştirakının təsdiqlənməsi və komandanın baş məşqçi Samir Əliyevə həvalə edilməsi barədə qərar qəbul edilib.

Beynəlxalq təcrübə nəzərə alınaraq, həmçinin aşağı yaş qruplarından ibarət komandalarda uşaqların futboldan daha çox zövq ala bilməsinə şərait yaradılması, böyük hesablı məğlubiyyətlər zamanı uduzan komandanın üzvlərinin həvəsdən düşməməsi məqsədilə 2022/2023-cü il mövsümündən etibarən AFFA-nın təşkilatçılığı ilə keçirilən U-9 liqasının oyunlarında hesab və nəticə qeydiyyatı aparılmayacaq, U-10, U-11 və U-12 liqalarında isə hesablar deyil, qalib və məğlub formatında qeydiyyat aparılacaq.

Gənclər və İdman Nazirliyi ilə razılıq əldə olunduqdan sonra AFFA tərəfindən Gəncə şəhər stadionunun mərhələli şəkildə inşasına başlanması barədə qərar qəbul edilib. Bakı Kəndlər Futbol Federasiyasının AFFA üzvlüyünə qəbul edilməsi ilə bağlı müraciəti isə qəbul olunmayıb.

## Mahir Emreli “Dinamo Zaqreb”də

Azərbaycan milli komandasının futbolçusu Mahir Emreli Xorvatiyanın “Dinamo Zaqreb” klubuna transfer olunub. Hücumçu bu məqsədlə Zaqrebə yollanıb. O, yeni komandasında tibbi müayinədən keçdikdən sonra 4,5 illik müqaviləyə imza atıb. Artıq klub bununla bağlı təqdimat videosu yayaraq, “Yenidən xoş gəldin” yazıb. Videodan belə məlum olur ki, M.Emreli “Dinamo”da 11 nömrəli formanı geyinəcək. 25 yaşlı hücumçunun transferi 1 milyon avroya gerçəkləşib. Lakin Xorvatiya klubu bu transfer üçün pul ödəməyəcək. Belə ki, Polşa klubunun “Dinamo”ya borcu qalıb. Lirim Kastratini 1,2 milyon avroya transfer edən “Legiya” zaqreblilərə cəmi 200 min ödəyib. Vəsaitin digər hissəsinin əvəzində isə Mahir Emrelinin transferi reallaşıb.

Polşanın “Legiya” klubu isə onunla müqavilənin qarşılıqlı razılıq əsasında pozulduğunu açıqlayıb.

Qeyd edək ki, “Dinamo Zaqreb” klubu Xorvatiyanın ən titullu klubu sayılır. “Göylər” 22 dəfə ölkə çempionu, 16 dəfə kubokun sahibi olub. Paytaxt təmsilçisi bu mövsüm avrokuboklarda mübarizəyə UEFA Çempionlar Liqasından başlayıb və III təsnifat mərhələsində Mahir Emrelinin sabiq klubu Polşanın “Legiya” komandasını iki oyunun yekununda üstələməyi bacarıb - 1:1, 1:0. Lakin pley-off mərhələsində Moldovanın “Şerif” klubu “Dinamo”nu 3:0, 0:0 hesablarla üstələyib. Nəticədə Xorvatiya klubu mübarizəni UEFA Avropa Liqasının qrup mərhələsində davam etdirib. Bu turnirdə isə H qrupunda



10 xalla 2-ci yeri tutan kollektiv səkkizdəbir finalda İspaniyanın “Sevilya” klubuna rəqib olub. “Dinamo” ilk görüşünü fevralın 17-də səfərdə, cavab oyununu fevralın 24-də evdə keçirəcək.

## Avropa klubları 7 milyard avro gəlirdən məhrum olublar

Avropa futbol klubları son iki ildə koronavirus pandemiyasına görə, 7 milyard avro gəlir itiriblər. Bu barədə UEFA-nın 2021-ci maliyyə ili üçün hesabatında bildirilir.

UEFA-nın hesabatı 700-dən çox klubdan daxil olan maliyyə göstəricilərinin, eləcə də 2021-ci il üçün ən son maliyyə göstəricilərinin ətraflı təhlilindən sonra hazırlanıb.

Hesabatda transfer gəlirlərinin də 40 faizdən çox azaldığı qeyd edilib. Belə ki, bu, 2020-ci və 2021-ci ilin yayında, eləcə də qış transfer pəncərəsində 2021-ci ildə müəyyən edilmiş fəallığın və qiymətlərin azalması ilə



əlaqədar olub. Koronavirus pandemiyası başlamazdan əvvəl 2018-2019-cu il mövsümündə transfer gəlirləri ümumi gəlirin 21 faizini təşkil edirdisə, 2020-2021-ci il mövsümündə onun payı 11 faizə düşüb.

Pandemiya şəraitində yüksək divizion klublarının xalis zərərləri 2021-ci maliyyə ilində 4 milyard avro səviyyəsində proqnozlaşdırılır.

İtirilmiş gəlirin əsas hissəsi (4,4 milyard avro) tamaşaçıların sayının azalması ilə əlaqədardır.

## Portuqaliya ikiqat Avropa çempionu oldu

Niderlandda futzal üzrə Avropa çempionatında final görüşü keçirilib. Həlledici qarşılaşmada Rusiya və Portuqaliya milli komandaları üz-üzə gəlib. Gərgin keçən görüşdə portuqaliyalılar üstün olub - 4:2.

Bu, Portuqaliya yığmasının ardıcıl ikinci qitə çempionluğu olub. Bu komanda ilk belə uğurunu 2018-ci ildə əldə edib. Portuqaliya həmçinin 2021-ci ildə dünya çempionu olub.

Ukrayna və İspaniya arasında 3-cü yer uğrunda görüşdə isə ispanlar üstün olub - 4:1.

Qeyd edək ki, Azərbaycan millisi qrup mərhələsində Gürcüstana 2:3 hesabı ilə məğlub olub. İspaniya seçməsi ilə 2:2 hesablı heç-heçə edən futzalçılarımız Bosniya və Herseqovinaya 5:2 hesabı ilə qalib gəliblər. Qrupda üçüncü olan Azərbaycan millisi növbəti mərhələyə vəsiqə qazana bilməyib.



## *FIFA-nın dünya çempionatı ilə bağlı ideyası tənqid edildi*

Beynəlxalq Olimpiya Komitəsi (IOC) FIFA-nın dünya çempionatlarını 2 ildən bir keçirməklə bağlı ideyasını tənqid edib. IOC-un mövqeyi qurumun 139-cu Sessiyasında açıqlanıb. Mütəxəssislər bildirib ki, qərar idmançıların səhhətinə mənfi təsir göstərməklə yanaşı, digər assosiasiyaların sabitliyinə də xələl gətirəcək. Dünya Güləş Birliyinin prezidenti Nenad Laloviç də ali futbol qurumunun təklifinə qarşı çıxıb.

Qeyd edək ki, dünya çempionatının 2 ildən bir təşkilini Səudiyyə Ərəbistanı Futbol Federasiyası təklif edib. Bunu 166 milli assosiasiya dəstəkləyib, 22-si isə əleyhinə olub.

1930-cu ildən keçirilməyə başlayan mundial II Dünya müharibəsi ilə əlaqədar, 1942 və 1946-cı illərdə istisna olmaqla, hər 4 ildən bir təşkil olunub. Qarşıdakı dünya çempionatları Qətərdə (2022), Kanada, Meksika, ABŞ-da (2026) olacaq.



Dünya–idmanı

## *Peşəkar boksçu futbol matçına çıxdı*

Ukraynalı boksçu Aleksandr Usik futbolda debüt edib. Boks üzrə WBA super, WBO, IBF və IBO versiyalarında dünya çempionu olan boksçu Ukraynanın ikinci liqasında çıxış edən "Polesye"nin heyətində mübarizə aparıb. İdmançı "Veres Rovno" ilə matçın bitməsinə 10 dəqiqə qalmış meydana çıxıb. A.Usik oyuna girdikdən qısa müddət sonra fərqlənmək imkanı qazansa da, bundan istifadə edə bilməyib.



Xatırladaq ki, Aleksandr Usik son görüşünü İngiltərə təmsilçisi Entoni Coşuaya qarşı keçirib. Döyüş 12 raund davam edib və hakimlər yekdilliklə qələbəni ukraynalı boksçuya veriblər.

Ukraynalı rinq ustası peşəkar boksda 19 döyüş keçirib və hamısını qələbə ilə başa vurub.



## *Serbiya Prezidenti Novak Cokoviçlə görüşüb*

Serbiya Prezidenti Aleksandar Vuçiç paytaxt Belqradda dünyanın bir nömrəli tennisçisi Novak Cokoviçlə görüşüb. Aleksandar Vuçiç Serbiya xalqını çox yaxşı təmsil etdiyi üçün Novak Cokoviça təşəkkür edib. Serbiya xalqının hər zaman Novak Cokoviçi dəstəklədiyini bildirən Aleksandar Vuçiç tennisçinin Avstraliya açıq turnirində ("Australian Open") iştirak etmək üçün göstərdiyi mübarizənin təqdirəlayiq olduğunu vurğulayıb.

Novak Cokoviç isə dövlət başçısına verdiyi dəstəyə və onun arxasında dayandığına görə təşəkkürünü bildirib. O bildirib ki, Serbiya Prezidenti prosesin siyasi yollarla həlli üçün əlindən gələni edib.

Xatırladaq ki, serbiyalı məşhur tennisçi Novak Cokoviç "Australian Open" turnirində iştirak etmək üçün getdiyi Avstraliyada sərhəd orqanları tərəfindən saxlanılmışdı. Avstraliya Federal Məhkəməsi isə tennisçinin vizasını ləğv etmişdi.



## "Haas" komandası bolidinin ilk şəkillərini yayımlayıb

Formula 1 üzrə dünya çempionatında mübarizə aparan "Haas" komandası 2022-ci il üçün bolidinin ilk şəkillərini yayımlayıb.

"VF-22" adlandırılan bolid keçən ilki versiyanın təkamülüdür, dizaynda ağ rəng və Rusiya bayrağı üstünlük təşkil edir.

"Haas" komandasının rəhbəri Günter Ştayner yeni "VF-22"nin tezliklə trasa çıxa biləcəyini və yenidən rəqabətə davamlı olacaqlarına ümid etdiyini bildirib.

## Qadın cüdoçu tatamiyə telefonla çıxdı

Fransanın paytaxtı Parisdə keçirilən cüdo üzrə "Böyük dəbilqə" yarışında maraqlı hadisə baş verib. 57 kq çəki dərəcəsində tatami üzərinə çıxan yerli idmançı Pristsilla Nyetonun kimonosundan mobil telefon düşüb. Hadisə yaponiyalı Momo Tamaoki ilə yarımfinal görüşünün başa çatmasına 2 dəqiqə 22 saniyə qalmış qeydə alınıb. Nəticədə Lonon-2012 Yay Olimpiya Oyunlarının bürünc mükafatçısı və Avropa çempionu diskvalifikasiya edilib. Qaydalara əsasən, tatamiyə kənar əşyalar gətirmək qadağandır. Sonradan bağışlanan qadın cüdoçu bürünc medal uğrunda görüşdə qələbə qazanaraq fəxri kürsünün 3-cü pilləsinə qalxıb.



olimpnews.az - sizin saytınız




## Seneqaldan tarixi çempionluq

Futbol üzrə Afrika Millətlər Kubokunun final görüşü keçirilib. Kamerunun "Ahmadu Axidjo" stadionunda təşkil olunan görüşdə Seneqal millisi Misir seçməsi ilə üz-üzə gəlib. Görüşün əsas vaxtında hesab açılmadığına görə qalibi müəyyənləşdirmək üçün əlavə vaxt oynanılıb. Cənubi Afrika Respublikasından olan baş hakim Viktor Qomes 5-ci dəqiqədə misirlilərin qapısına penalti təyin edib. Penalti zərbəsini Sadio Mane dəqiq yerinə yetirə bilməyib.

Əlavə olunmuş dəqiqələrdə yenə də hesab dəyişməyib. Qalib penalti seriyasında müəyyənləşib. Rəqibini 4:2 hesabı ilə məğlub edən Seneqal millisi Afrika Millətlər Kubokunun qalibi olub. Seneqallılar tarixində ilk dəfə bu kuboku qazanıb.

Turnirin bürünc medalları uğrunda mübarizədə isə Burkina-Faso və Kamerun yığmaları üz-üzə gəlib. İlk yarıda iki qol vuran Burkina-Faso millisi 49-cu dəqiqədə hesabı ikiyə artırıb. Lakin meydan sahibləri ruhdan düşməyiblər. Matçın sonlarında ardıcıl üç qol vuran Kamerun futbolçuları məğlubiyyətdən xilas olublar. Matçın taleyini isə penaltilər seriyası həll edib. On bir metrlik zərbələrdə daha dəqiq olan (5:3) "Ramedilməz şirlər" turnirin bürünc medallarını qazanıblar.

Olimpiya dünyası

Baş redaktorun müavini:
A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19